

# “Savalan baba”nın “babası”nın uşaqlığı...

## Rafiq Savalan: “İşə kəfənim qoltuğumda gedirdim”

Aygün ƏZİZ

**Uşaqların Savalan babası... Milli radiomuzda yayımlanan, xüsusilə dövrünün ən populyar radio verilişlərindən olan uşaqların sevimlisi ”Biləyən” idi. O dövrün uşaqları hər efirdə Savalan babanın: ”Salam, mənim istəkli nəvələrim, nəticələrim” sözlərini səbirsizliklə gözləyərdi... Savalan babanın efir vasitəsilə evlərə gəlişi balacaları sevindirərdi...**

Biz də hər bazar günü uşaqların maraqla dinlədikləri ”Biləyən” radio verilişinin yaradıcısı, ideya müəllifi və redaktoru, bir sözlə, ”Savalan baba”nın ”babası” olan Rafiq Savalanın uşaqlıq, gənclik illərinə səyahət etdik...

### ”KÜR ÇAYINA VURULMUŞDUM”

Rafiq Savalan 1940-cı ildə dünyaya gəlib. Uşaqlığı müharibə illərinə təsadüf edib: ”1941-ci ildə müharibə başladı. Atam qocaman partiyaçılardan idi. O vaxt atamgili Dağıstanda partlamayan bombaları axtarmağa apardılar. Ailədə 6 uşaq idik. 4 bacı, 2 qardaş... Anamın himayəsində atamın gəlməyini gözləyirdik. Uşaqlığım Neftçala rayonunda, Kürün qırağında keçib. 3-cü sinfi bitirəndən sonra atam Dağıstandan qayıtdı. Atam Neftçalada fəhlə təchizatı idarəsində partkom işləyirdi. Mən rus dilini Neftçalada öyrəndim. Daha sonra bu dil həyatımda böyük rol oynadı. Yazı-pozudan başqa, bədii tərcümə ilə məşğul olmağa başladım. Dünyanı dərk edən vaxtım Kürlə, kəndlə, Kürün qırağındakı meşələrlə bağlı olub. Kürü çox sevirdim. O vaxt Kürlə xəndəklərə balıq axırdı. Təbiəti orada görüb sevmişəm.

### ”ARIQ, AMMA CƏSARƏTLİ UŞAQ İDİM”

Uşaqlıq illərindən danışarkən kövrələn müsahibimiz deyir ki, ilk dəfə məktəbə müraciət edəndə onu götürmək istəməyiblər: ”Bakıda 161 nömrəli məktəbə getmişəm. Çox arıq, çəlimsiz idim. Fiziki cəhətdən zəif olduğum üçün məni məktəbə götürmədilər. Anam dedi ki, uşağın savadını yoxlayın, sonra qərar verin. Yoxladılar, gördülər ki, mən ikinci, üçüncü sinfin dərsini bilirəm. Çünki 2 bacım məndən böyük olduğu üçün keçdikləri dərsi evdə hazırlayanda onlardan öyrənirdim. Ona görə məktəbə gedəndə artıq hər şeyi bilirdim. 3-cü sinfi Bakıda bitirmişəm. Qorxaq uşaq olmamışam. Lazım gələndə, kimsə hansısa zəif uşağı incidəndə, özümdən böyük, qüvvətli adamın üstünə getmişəm. Çəlimsiz olmağıma baxmayaraq, çox cəsarətli uşaq idim. Dərslərimi yaxşı oxuyurdum. Hətta müəllim dərsi mənə tapşırıb gedirdi. O vaxt uşaqların da bilikli adama hörməti var idi. Uşaqlar məndən güclü, böyük olmalarına baxmayaraq, sözümü dinləyirdilər”.

### ”ANAMA ”BƏY” DEYİRDİLƏR”

Rafiq Savalan deyir ki, anası onları çox ciddi, ”gestapo” rejimində tərbiyə edib: ”Anam çox ciddi idi. Bütün ailə qohum-əqrəbanın içində anama ”bəy” deyə müraciət edirdilər. Biz küçədə dondurma alıb yeyə bilməzdik. Dayımgilə gedirdik, mən anamın qorxusundan yemək yemirdim. Anam fikirləşirdi ki, insan hər zaman nəfsinə hakim olmağı bacarmalıdır. Bizi də elə tərbiyə edirdilər”.

### ”ANAM ”PRYANİK” GƏTİRDİ Kİ, BOZBAŞI BUNUNLA YE”

Müsahibimiz o dövrün çörək qıtlığındakı xatirələrindən də danışdı. Əhvalatları danışarkən göz yaşlarına gizlədə bilməyən Savalan baba deyir ki, çox çətin illər idi: ”Atamın qohumu var idi, Gülgəz nənə. Oğlanları əsgərlikdə ölmüşdü. Gülgəz nənəni atam evimizə gətirmişdi. Bir dəfə anam bozbaş bişirmişdi. Evdə çörək yox idi. Anam ”pryanik” gətirdi ki, bozbaşı bununla ye. Dedim ay ana, pryaniklə bozbaş yeyərlər? Dedi neynəyim, ye... Gülgəz nənə çörək gətirdi ki, al bununla ye. Dedim yox, bu sənindir, mən yeyə bilmərəm. Dedi, onda sən pryanikini mənə ver, mən də sənə çörəyimi verim. Elə razılaşdıq. Çörək talonla satılırdı. Ayın axırı idi, bizim talonda 2-3 günlük çörək almaq haqqımız var idi. Lakin mən çörək almağa gedəndə talonu itirmişdim. Anam talonu istəyəndə axtardım, tapa bilmədim. Məni ağlamaq tutdu. Çox ağır günlər idi. Nənəm də bizimlə qalırdı. Nənəm dedi ki, ”nə olsun, itib itib də, qorxma...”. Amma mən özümü bağışlaya bilmirdim”.

### ”FƏHLƏ İŞLƏDİYİM ÜÇÜN RƏNCİDƏ OLMUŞDUM”

Normal imkanlı ailə olsalar da, atası Rafiqi fəhlə məktəbinə işləməyə göndərib: ”9-10- cu sinifləri fəhlə-gənclər məktəbində gecə növbəsində oxudum. Hətta atamı qohum-əqrəba arasında qınayırdılar ki, sənin çörəyin var, oğlunu niyə fəhlə işlədirsən, bunun işinin sənin ailənə nə xeyri olacaq? Deyirdi, mənim işimə qarışmayın. Mən də içimdə rəncidə olmuşdum ki, niyə mən burada işləyirəm. Çox ağır iş idi. 50 kiloluq turbaları çiynimdə daşıyırdım. Universitetə qəbul olandan sonra hələ də çiyinlərimdən yükün izi getməmişdi. Təsəvvür edin, imtahandan 15-16 bal topladım. Bu bal qəbul olunmağa kifayət etmirdi. Amma mən iş təcrübəsinin hesabına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul oldum. Orada başa düşdüm ki, atam, uzaqgörənmiş”.

### ”KİTAB OXUMAQ MƏNİM TƏLƏBATIM İDİ”

Həmsöhbətimiz universitet illərində ”şuluq” tələbə olub. Amma oxumaq həvəsi onu hamının gözündə aliləşdirib: ”Universitet illərində şuluq tələbə idim. Amma çox oxuyurdum. Məndə xüsusi olaraq imtahana hazırlaşmaq üsulu yox idi. Oxumağı sevirdim. O vaxt nənəm qürub vaxtı Quranı götürüb çölə çıxıb dua edirmiş ki, oğul nəvəsi olsun. Sonra göbəyimi kitab arasına qoyublar. Bilmirəm, cəfəngiyatdır, yoxsa düzdür, amma mən kitab oxumaqdan zövq alıram. Evləndim, övladım oldu, amma mən oxumadan yemək yeyə bilmirdim. Gərək qəzet parçası olaydı, ora baxa-baxa yemək yeyəydim. Onda yemək nuş olurdu. Neftçalada məktəbin kitabxanasında kitab qalmamışdı, hamısını oxumuşdum. 4 künclü batareyalardan işıq düzəldib alınma keçirirdim və yorğanın altında kitab oxuyurdum. Bu qədər oxumaq hərisi idim. Bu, dərs üçün deyildi. Sadəcə, oxumadan dayana bilmirdim. Kitab oxumaq mənim tələbatım idi”.

### ”SƏTTAR BƏHLULZADƏNİN HƏDİYYƏSİNİ GÖTÜRMƏDİM”

Universitet illərindən qəzetlərlə əməkdaşlıq etməyə başlayıb: ”O dövrdə ali məktəbi bitirənlərin hamısına təyinat verirdilər. Tək jurnalistikaya təyinat verilmirdi. Çünki 1 radio 1 televiziya və 5-6 qəzet var idi. Buna görə də işçi sarıdan əziyyət çəkmirdilər. 5 il oxuduq, iki il yarımını təcrübədə olduq. Elə tələbəlik illərindən qəzetlərlə əməkdaşlıq edirdik. Məsələn, göydələn sözünü Azərbaycanda ilk dəfə mən işlətmişdim. Yazılarımda cəsarət olduğuna görə, seçilirdim. Universiteti təzə qurtarmışdım. Xəbər çıxdı ki, yeni radio açılıb. Harada işıq ucu var, ora gedirdik. İşləməyə başladım. Yadımdadır, Səttar Bəhlulzadədən müsahibə almışdım. Şəkillərindən birini mənə hədiyyə etmək istədi, götürmədim. Fikirləşirdim ki, götürərəm, qapıda qoymazlar, qorxdum... Bu, anamın təsiri idi. Evdə çox ciddi olduqları üçün hər şeydən çəkinirdim”.



### ”MAŞINDA AYƏTUL-KÜRSÜ OXUYURDUM”

Ölkəmizdə milli azadlıq hərəkatının fəal iştirakçısı olan Rafiq Savalan 1990-cı il yanvarın 19-da işğalçı qoşunların Azərbaycan televiziyasının enerji blokunu partlatdıqları zaman təxribatların daha geniş miqyas almasına mane olmuş vətənpərvərlərdən biridir. O, qanlı yanvardan 3 gün sonra Azərbaycan SSR Ali Sovetinin səhərə qədər davam edən sessiyasında ictimaiyyətin nümayəndəsi kimi iştirak edib, deputatların təklifi ilə redaksiya heyətinə seçilib. Həmin axşam deputat, xalq yazıçısı Anar və Rafiq Savalan dünya xalqlarına, dünya parlamentlərinə müraciətin rus dilində mətnini yazıb yayıblar.

1990-cı il yanvarın 24-dən 25-nə keçən gecə Rafiq Savalan işğalçı qoşunların rəhbərliyi tərəfindən 2 nəfər həmkarı ilə birlikdə həbs edilərək, Ulyanovsk həbsxanasına göndərilir. İctimaiyyətin, televiziya radio işlərinin, habelə, Ulyanovskda yaşayan azərbaycanlıların böyük səyi ilə azad ediblər. Deyir ki, həmin dövrdə işə kəfəni qoltuğunda gedirmiş: ”Evdə ”Biləyən” verilişini yazırdım və 20 yanvara həsr edirdim. Qapı döyüldü . 4-5 nəfər xüsusi təyinatlı evə girdilər və məni apardılar. Maşında ayətul-kürsü oxuyurdum. 3 gün soyuq yerdə yatdıq. 10 nəfər insana cəmi 8 ”döşək” vermişdilər. Çox çətin günlər idi”.



### ”XORUZA BABA DEYƏRLƏR?”

Müsahibimiz sonda Savalan babanın yaranma tarixindən də danışdı: ”O vaxtlar mən də radioya qulaq asırdım. Kiçik yaşlı məktəblilər üçün Xoruz baba var idi. Elə o vaxt hirslənirdim ki, xoruza baba deyərlər? Mən özümü vurdum ora-bura və ”Biləyən”i ərsəyə gətirdik. Savalan babanı yaratdıq. Düzdür, adına görə məni incidirdilər ki, başqa ad tapa bilmirdin? Amma bunun da öhdəsindən gəldik. Uşaqların ”Savalan baba”sı olmaq, onların üzündə gülüş yaratmaq nəyə desəniz dəyər”...